# Sağlam həyatın təminatı

## *Azərbaycan səhiyyəsi icbari tibbi sığortanın tətbiqinə hazırlaşır*

Azərbaycanda səhiyyə sektorunun inkişafı, vətəndaşlara keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi dövlətin həyata keçirdiyi sosial siyasətin təməl prinsiplərindəndir. Prezident İlham Əliyevin bu sahənin inkişafı ilə bağlı yürütdüyü məqsədyönlü siyasət səhiyyənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub.

Bu gün isə Azərbaycan bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə istifadə edilən icbari tibbi sığortanın tətbiqinə hazırlaşır. Azərbaycan Prezidentinin Sərəncamı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılıb və bu ilin fevral ayında qurumun əsasnaməsi təsdiqlənib. Qurumun gördüyü işlər, qarşıdakı hədəflər və hökumətə təqdim edəcəyi sığorta paketi, sözsüz ki, hər kəs üçün maraqlıdır. Elə bu məqsədlə də agentliyin ofisinə baş çəkdik.

### Tibb müəssisələrinin ödəniş sistemində dəyişikliklər baş verəcək

Hər kəs iş başında idi. İlk tanışlığımızdan bəlli oldu ki, agentliyə əsasən gənc mütəxəssislər cəlb olunub. Burada 6 şöbə - İcbari tibbi sığorta,İnsan resursları və ictimaiyyətlə əlaqələr, Monitorinq, təhlil və informasiya texnologiyaları (İT), Hüquq, Maliyyə-mühasibat və Ümumi şöbə var. İnsan resursları və ictimaiyyətlə əlaqələr şöbəsinin nəzdində isə İctimaiyyətlə əlaqələr sektoru fəaliyyət göstərir.

Tanışlığa başladığımız İcbari tibbi sığorta şöbəsini Dövlət Agentliyinin "sütunu" adlandırırlar. Şöbə müdüri Vüqar Qurbanov bildirdi ki, burada çalışan işçilər ixtisasca həkimdirlər: "Əsas işimiz vətəndaşlara veriləcək icbari tibbi sığorta paketinin hazırlanması, onların analizi, monitorinqi və gələcəkdə hansı təminatları daha geniş şəkildə əhatə edə biləcəyimizi təhlil etməkdən ibarətdir. Hazırda şöbəmizdə çalışan əməkdaşların hamısı həm həkim, həm də xarici şirkətlərdə sığorta sahəsində işləmiş gənclərdir".

V.Qurbanovun sözlərinə görə, ölkəmizdə icbari tibbi sığorta tətbiq olunduqdan sonra səhiyyə strukturlarının, tibb müəssisələrinin ödəniş sistemində dəyişikliklər baş verəcək. Rəhbərlik etdiyi şöbə də yeni ödəniş mexanizmlərini və onun tətbiqi imkanlarını araşdırır. Məsələlərin həlli üçün Səhiyyə Nazirliyi ilə sıx əlaqə saxlanılır. Əsas hədəflərdən biri aztəminatlı ailələrlə bağlı olan xidmətləri də sığorta paketinə daxil etməkdir. Hazırda bunun maliyyə hesabatları hazırlanır.

### Peşəkar işçi heyəti formalaşır

Tibbi sığortayla bağlı monitorinqlər aparanda Azərbaycanda riski yüksək olan xəstəliklər araşdırılır. Xəstəliyin ilkin mərhələdə aşkar olunması vətəndaşlar üçün də faydalıdır. Çünki belə xəstələr müalicəyə daha tez cəlb olunacaq. Bu zaman xərclər azalacaq, vətəndaş daha effektiv müalicə alacaq. Ona görə hazırda monitorinqlər əsasən bu istiqamətdə aparılır.

Agentliyin ən böyük şöbəsi olan Monitorinq, təhlil və İT şöbəsində çalışan əməkdaşlar da əsasən xarici universitetlərdə və ölkəmizin qabaqcıl ali təhsil müəssisələrində təhsil almış gənclərdir. Şöbənin müdiri İsa Əliyev dedi ki, səhiyyə sahəsində olan iqtisadi, sosal və tibblə bağlı bəzi statistik məlumatları toplayıb təhlil edirlər. Gələcəkdə icbari tibbi sığortanın tətbiqi ilə sənədlərin hazırlanması üçün araşdırma aparılır. İsa Əliyevin sözlərinə görə, indiyə qədər Azərbaycanda icbari tibbi sığorta sistemi olmadığı üçün şöbəyə əsasən xarici təcrübəsi olan şəxslər seçilir: "Ona görə də bizimlə çalışan əməkdaşların, demək olar ki, hamısı xarici ölkələrdə işləmiş şəxslərdir. 5 əməkdaşımızın 4-ü xaricdə təhsil almış gəncdir. Şöbəmizdə icbari tibbi sığortanın tətbiqi ilə bağlı məlumat bazası formalaşdırmışıq".

İcbari tibbi sığorta sahəsində qanunvericilik bazasının öyrənilməsi və araşdırılması prosesini isə agentliyin Hüquq şöbəsi həyata keçirir. Şöbə müdiri Aysel İbayeva bildirdi ki, qanunvericilik aktlarının təkmilləşdirilməsinə dair təkliflər təhlil edilir və bu sahədə mövcud beynəlxalq təcrübə, xarici ölkələrin qanunları öyrənilir.

Sonra İnsan resursları və ictimaiyyətlə əlaqələr üzrə şöbəyə baş çəkdik. Şöbənin müdiri Günay Qasımova qeyd etdi ki, insan resurslarının düzgün idarəetmə siyasətini həyata keçirən şöbənin əsas missiyası yüksək keyfiyyətin əldə edilməsi üçün ən mühüm amil olan professional heyətin seçilməsi, onların inkişaf etdirilməsi və agentlik daxilində karyerasının qurulmasını təmin etməkdir.

**Ardı 7-ci səh.**

# Sağlam həyatın təminatı

## Azərbaycan səhiyyəsi icbari tibbi sığortanın tətbiqinə hazırlaşır











*Əvvəli 1-ci səh.*

Məqsəd yalnız sənədləşmə və digər əməliyyatların həyata keçirilməsində təkcə xidmət təminatçısı kimi yox, agentliyin dəyərlərinə, missiyasına sadiq olaraq digər şöbələrə, eləcə də bütün heyətə strateji tərəfdaş olmaqdır.

Qurumun Ümumi şöbəsinin müdiri Peyman Nağıyev isə dedi ki, əsasən agentliyin gündəlik təsərrüfat tələbatının və əməkdaşların cari ehtiyaclarının qarşılanması, satınalma işlərinin həyata keçirilməsi ilə məşğuldurlar. Bundan başqa, inzibati binanın işlək vəziyyətdə saxlanılması da şöbənin əsas vəzifə öhdəliklərinə aiddir.

Ofisdə olarkən agentliyin Maliyyə-mühasibat şöbəsində toplantı keçirildiyi üçün işlərinə mane olmadıq. Şöbə müdiri Rasim Həsənov sadəcə olaraq onu bildirdi ki, maliyyə hesabatlarının hazırlanması ilə bağlı müzakirələr aparırlar.

Son olaraq İctimaiyyətlə əlaqələr sektorunun fəaliyyəti ilə maraqlandıq. Sektor müdiri Aynurə Əhmədova bildirdi ki, tibbi sığorta mövzusu ictimaiyyətin maraq dairəsində olduğundan KİV nümayəndələri də bu mövzunu gündəmdə saxlamağa çalışırlar. Agentliyə icbari tibbi sığortanın tətbiqi ilə bağlı çoxsaylı müraciətlər daxil olur və hər bir sual operativ cavablandırılır.

### 1 rayon və 1 şəhərdə pilot layihə sınaqdan keçiriləcək

Şöbələrin iş fəaliyyəti ilə tanış olduqdan sonra İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyevlə qurumun hazırkı fəaliyyəti, görüləcək işlər, eləcə də gələcək planlarla bağlı həmsöhbət olduq.

2016-cı ilin əvvəlində nəzərdə tutulduğu kimi, bu gün hazırlıq mərhələsinin eyni intensivliklə davam etdiyini deyən Z.Əliyev ilin sonuna qədər bu mərhələnin bitəcəyini qeyd etdi: “Sonra isə seçilən pilot rayonlarla bağlı maarifləndirməyə və vətəndaşların məlumat bazasının yaradılmasına başlayacağıq”.

Artıq agentliyin strukturu formalaşıb, ancaq əməkdaşların sayı artırıla bilər. Bu sahə spesifik olduğuna görə həm tibb təhsilli, həm də sığorta və maliyyə sahəsində təcrübəsi olan şəxslər işə cəlb edilir: “İşimiz daha çox səhiyyənin maliyyələşməsi ilə bağlı olduğundan bizə əsasən maliyyəçilər lazım olur. Eyni zamanda, yaxşı hesablama işlərini bacaran riyaziyyatçılara ehtiyac duyulur. Çünki bizdə çox aktual hesablamalar aparılır. Gələcəkdə vətəndaşlara xidmət göstərəndə bilməliyik ki, bizim xərcimiz nə qədər olacaq. Buna görə bu sahədən olan əməkdaşlara daha çox üstünlük veririk”.

Agentlik rəhbəri Azərbaycanda icbari tibbi sığortanın tətbiqinin gecikmə səbəblərindən də söz açdı. Bildirdi ki, 10 il əvvəl səhiyyə büdcəmiz indikindən 10 dəfə aşağı olub. Həmçinin səhiyyə ocaqlarımızın vəziyyəti, maddi-texniki bazası qənaətbəxş deyildi. Eyni zamanda 10 il öncə vətəndaşlarımızın gəlirlilik dərəcəsi də aşağı idi. Bu kimi obyektiv səbəblərdən tibbi sığortanın tətbiqi gecikməli olmuşdur. Lakin son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bütün sahələrdə olduğu kimi, səhiyyə sistemində də mühüm islahatlar aparılıb və müasir səhiyyə müəssisələrinin, infrastrukturun qurulması üçün dövlət büdcəsindən böyük məbləğdə vəsait ayrılıb. Bu dövrdə əksəriyyəti respublikanın bölgələrində olmaqla 500-dən çox tibb müəssisəsi əsaslı təmir olunub və ya yeniləri tikilib.

Z.Əliyev onu da vurğuladı ki, agentliyin fəaliyyət müddəti onun əsasnaməsinin təsdiq edildiyi vaxtdan, yəni 2016-cı ilin fevral ayından etibarən qiymətləndirilməlidir: “Biz çalışırıq ki, gələn ilin sonuna qədər pilot qaydasında icbari tibbi sığortanı sınaqdan keçirək. Layihə bir müddət sınaqdan keçirildikdən sonra çatışmazlıqlar aradan qaldırılacaq və layihə geniş formada tətbiq olunacaq. Pilot layihəni sınaqdan keçirmək üçün təxminən 9 ay vaxt lazımdır. Əgər biz bu ilin sonundan başlasaq, təqribən 2017-ci ilin sentyabr-oktyabr aylarında layihəni də bitirməliyik. Nəhayət, 2017-ci ilin sonlarına doğru mərhələli şəkildə ölkə ərazisində icbari tibbi sığortanın tətbiq edilməsini nəzərdə tuturuq”.

Qeyd edək ki, agentliyin pilot layihəsinin bir rayon və bir şəhər tipli ərazidə tətbiq edilməsi nəzərdə tutulur. Rayon və şəhərlərin tibbi xidmət infrastrukturu və tibbi xidmətin təşkilində müəyyən fərqlər olduğundan agentlik həm şəhər, həm də rayon tipli ərazidə bu sistemin tətbiqini sınaqdan keçirəcək. Pilot layihənin həyata keçirilməsinin məqsədi əhalini və tibb müəssisələrini icbari tibbi sığorta sisteminə keçidə hazırlamaqdır.

### Azərbaycanda icbari tibbi sığortanın sosialyönümlü modeli tətbiq ediləcək

Bu sistemin Azərbaycan vətəndaşının səhiyyəyə olan güvənini artıracağını deyən qurumun direktoru icbari tibbi sığortanın tətbiqi zamanı vətəndaşların həyatına müsbət təsir edəcək təminatların verilməsi üçün çalışdıqlarını söylədi. Vurğuladı ki, dünyada icbari tibbi sığorta ilə bağlı çox model yoxdur. Bunlardan ən uyğunu sosialyönümlü modeldir. Belə ki, dövlət bu sistemdə vətəndaşlarla birgə fəaliyyət göstərir. Zaur Əliyevin sözlərinə görə, agentlik Azərbaycanda da bu modeli tətbiq etmək istəyir: “Burada həm dövlətin, həm də vətəndaşların rolu olacaq. Vətəndaşlar illik olaraq müəyyən bir məbləğ ödəyir, yığımlarda çatışmazlıq olduqda ödəniş dövlət tərəfindən qarşılanır. Yaxud da dövlət konkret qruplar üçün tələb olunan sığorta haqlarını bütünlüklə üzərinə götürür. Bizim Azərbaycanda seçdiyimiz model daha çox sosial tibbi sığorta yönümlüdür. Aztəminatlı ailələrlə bağlı nəzərdə tutulan sığorta haqqını da dövlət öz üzərinə götürəcək. Burada hər kəsin bərabər hüququ olacaq. Bütün vətəndaşlar eyni xidmətlərdən yararlana biləcəklər. Dünyada həm sosial, həm də milli tibbi sığorta modelləri mövcuddur. Biz adətən Türkiyə və Almaniya modellərinin adını çəkirik. Əslində, bunlar hamısı mahiyyətcə eyni modellərdir. Yəni hamısı sosial tibbi sığorta modelidir. Bizdə tətbiq olunacaq icbari tibbi sığorta zamanı vəsaitin kim tərəfindən ödəniləcəyi və faizlərin necə olacağını yaxın zamanda açıqlayacağıq”.

Təbii ki, icbari tibbi sığortanın tətbiqi üçün infrastrukturun olması çox əhəmiyyətlidir. Bu gün isə Azərbaycan sosial-iqtisadi inkişafın elə bir mərhələsindədir ki, vətəndaşların sağlamlığının təmin olunması üçün icbari tibbi sığorta sisteminin tətbiqinə real şərait var. Ümid edirik ki, yaxın zamanlarda Azərbaycan səhiyyə sahəsində yeni sistemə keçəcək və icbari tibbi sığorta vətəndaşların sağlamlığının təminatı olacaq.

***Rəşad BAXŞƏLİYEV, Elgün MƏNSİMOV, “Azərbaycan”***